

# Henrinin yoxsa Sinderellanın Ayaqqabıları?

Müəllif: Asmaa Emara
İllüstrator: Hanan Taha Tabaq

3asafeer.com

Bu məhsul, aşağıda adları çəkilən təşkilatların səxavətli dəstəyi sayəsində ərsəyə gəlib:

Bütün Uşaqlar Oxuyur: Tərəfdaşların İnkişaf üçün Böyük Bir Problem (ACR GCD) The All Children Reading: A Grand Challenge for Development (ACR GCD) Partners

ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD),

World Vision və Avstraliya Hökuməti.

Bu, Asafeer Təhsil Texnologiyaları FZ MMC tərəfindən hazırlanıb və

ACR GCD Partners- in fikirlərini əks etdirmir.

cc BY NC SA




Henrinin anası ondan erkən yatmasını xahiş etdi, ancaq saatın səsi onu dəli edirdi.
Xüsusilə kiçik, saniyələri göstərən əqrəb. Başqa əqrəblər kimi niyə o da səssiz işləyə bilmir?
Henri indi nə düşünür?



Səhərə qədər sakit yata bilməsi üçün Henri saniyə əqrəbini çıxartmağa çalışdı.
Ancaq saniyə əqrəbinin ona dərs vermək üçün başqa bir planı var idi.
Beləliklə...



Ola bilməz! Nə baş verir! Bu yuxudurmu? Saniyə əqrəbi Henrini çox sərt şəkildə özünə tərəf dartdı. Saniyə əqrəbi dəli olub? O Henrini oğurlayır luuupp! (Səs)



"Saniyələrin mənasını öyrənə bilməyin üçün mən səni oğurlayıram", - saniyə əqrəbi dedi. Henri Misir obeliskinə (red. Yuxarıya doğru getdikcə nazikləşən, yonulmuş daş sütundan ibarət abidə) baxdığını bilirdi. O eynən tarix kitablarında gördüklərindən birinə bənzəyirdi.
Nəhayət, saniyə əqrəb dilləndi: "Bu bəşəriyətin bildiyi ilk Günəş saatıdır.
Birinci Firon Amenhotepe aid idi. Bunu ilk dəfə qədim Misirlilər qayalardan hazırlayıb".
Bir az keçmişdi ki ...



Qəfildən nizəli adamlar onları mühasirəyə aldı. Onların nizəsinə tuş gəlməyə bir saniyə qalmış, saniyə əqrəbi Henrinin qolundan tutub qaçdı.

İndi hara gedəcəklər? Luuup (Səs)



Henri qaranlıq bir otağın ortasında dayandığını gördü. "Buna bax, bu şam saatı deyilmi?" - saniyə əqrəbi soruşdu.
"Şamın üstü elə işarələnmişdi ki, iki xətt arasındakı məsafə tam iyirmi dəqiqə yanırdı".
Qəfildən...



Yer silkələndi və sarsıldı. Bu zəlzələ idi. Henrinin dizləri titrəyirdi.
Yerdə böyük bir çat yarandı. Çat getdikcə daha da genişlənərək onlara tərəf yönəldi. Onlar əzab içində idilər.
Onlar yarığa düşməyə bir saniyə qalmış, saniyə əqrəbi Henrini dartıb apardı.
Görəsən, bu dəfə hara gedəcəklər?
Luupp. (Səs)




Saniyə əqrəbi dedi: " Bu civə və dişli çarxla işləyən ilk hidravlik saatdır".
Anidən, hidravlik piston onları əzmək üçün onlara doğru hərəkət etməyə başladı. Pistolun onları əzməsinə bir saniyə qalmış, saniyə əqrəbi dostu Henrini əlindən tutub dartdı.
Luuupp... (Səs) ancaq...



Saniyə qərəbi dedi: "Biz dünyada məşhur olan Elizabetin saat qülləsinin, yəni Biq Benin içindəyik".
Henri sevincli halda çarxın bir dişindən digərinə tullanırdı. O vaxta qədər tullandı ki,
ayaqqabısının qaytanları iki dişin arasında ilişib qaldı.
Henri hərəkət edə bilmirdi. Qaytanı dartıb oradan çıxartmağa çalışdı, ancaq bacara bilmədi. İşıq parıltısında ...



Onlara doğru gələn
saatın kəfgirini gördülər. Kəfgirin onları əzməsinə az
qalmışdı. Saat taqqıltısının səsi də çox yüksək idi. Saniyə
əqrəbi qışqırdı:
"Cəld ol, ayaqqabılarını orada çıxart! Bizim vaxtımız yoxdur!"
Saatın kəfgiri onları əzməsinə bir saniyə qalmış, saniyə
əqrəbi dostu Henrini dartdı.
Luuuuup. (Səs)



Henri dedi: "Əgər biz bir saniyə də gözləsəydik, kəfgir bizi əzəcəkdi".
Birdən, o saniyələrin dəyərini anladı
və saniyə əqrəbə əminliklə gülümsədi:
"Qoy səni aid olduğun yerə geri qoyum".
Əqrəbi yerinə düzəltdikdən sonra
Henri ayaqqabısının harada olduğunu xatırladı,
amma onun yeri haqqında anasına nə deyəcəyini bilmədi.
Saniyə əqrəbi ona göz vuraraq dedi: "Bəlkə corabların itdiyi yerdədir".
Sonra anasının onu çağırdığını eşitdi.
Görəsən, anası Henrinin otaqda olmadığını anlamışdı?
Dostu ilə danışarkən anası Henrini eşitmişdi?



Əslində anası televiziyada gördüyü təcili xəbəri ona demək üçün çağırmışdı.
İngiltərə parlamenti elan edirdi ki, yüz əlli səkkiz il ərzində ilk dəfə idi ki, Biq Ben dayanıb.
Henrinin rəngi solmuşdu. Dua edirdi ki, heç kim onun ayaqqabısını tapmasın və ya o ayaqqabıya uygun ayağı olan birisini axtarmasın, yoxsa onun da hekayəsi Sinderellanınkı kimi hər yerdə danışılacaq.



SON